**Oljas SÜLEYMENOV**

(Qazaxıstan, Alma-Ata)

# FENOMEN

Çingiz Aytmatovun həyat hekayəsini yazanlar onun həyatını dövrlərə bölməyə çalışmaqdadırlar. Bu dövrlərdən birini və ən uzununu – 40 ilə yaxın xoşbəxt yazıçılıq dövrü kimi dəyərləndirə bilərik. Bu dövr gənc Aytmatovun Moskvadakı Qorki adına Ədəbiyyat İnstitutuna qəbul olunduğu vaxtdan başladı. O, burada "Cəmilə" əsərini "Novıy Mir" jurnalında dərc etdirdi. Tvardovski, Lui Araqon və Muxtar Auezov kimi məşhur yazarlarla qarşılaşdı. Amma onun əsl bacarığı "Novıy Mir" jurnalının nəsr bölümünün redaktoru Dmitriyeva ilə tanışlıqdan sonra başladı. Nədənsə, redaktorluq məsələsinə bu gün önəm verilmir. İndi bəzi nəşriyyatlar redaktorsuz, hətta təsisçi olmadan çalışır. Ədəbiyyat həyatına yeni atılan Çingiz Aytmatovun o zaman qarşısına peşəkar redaktorlar çıxmışdı. Onun Sovet nəsrində böyük karyera qazanmasında, mənsəbə çatmasında bu redaktorların böyük zəhməti olub.

Sovetler Birliyi dağıdıldıqdan sonra sovet nasirlərinin xoşbəxt günləri sona yetdi. "Dünyada ən çox oxuyan millət" məfhumu yox oldu. Yüksək oxucu ilə nəşr sənəti də Sovet ədəbiyyatı ilə birlikdə çökərək geriyə döndü. Bir çox məşhur adlar söndü. Bax, bu geriləmə dövrünü milyonlarla oxucusu tərəfindən sevilən, oxunan cox dəyərli yazarlarımızdan biri olan Çingiz Aytmatov da keçirdi. Ç.Aytmatov unudulmağa, yaddan çıxmağa qarşı düz 20 ilə qədər mübarizə apardı. Yeni əsərlər yazdı. Amma bu əsərlər yazıçının axtardığını deyil, çaşqınlığını büruzə verdi.

"Cəmilə" və "Boranlı Beket" əsərlərində müstəqil dil ifadələri vardır. Bunlar kimi şah əsərlər, kitablar gələcək nəsillərə görünən zirvəyə dırmanmaq üçün bir yoxuş idi. Neçə yoxuş keçdiyin heç önəmli deyil, adını məşhur etmək üçün bir-ikisi də yetərlidir. Bəzilərində əgər önəmli düşüncə və duyğular yer almırsa, yüz dənə yoxuş keçsələr də, bəs etməz. Aytmatovun əsərlərində isə bütün bunlar açıq bir şəkildə görünmüşdür.

Son dövrləri demək olar ki, 20 il diplomat işləriylə keçdi. Əvvəlcə Sovetlər Birliyinin Lüksemburqdakı kiçik elçisi kimi, daha sonra Qırğızıstanın Böyük Avropa Birliyi Mərkəzində məsul vəzifədə çalışdı.Və onu hər yerdə o qədər də tanınmayan xalqının elçisi kimi deyil, dünya mədəniyyətinin bir nümayəndəsi olaraq qarşıladılar.

Qazax təbiəti, bozkırlılar dünyası Auezovdan sonra Aytmatovun əsərlərində, romanlarında gözəl bir duyğu ilə təsvir olunub. Biz bunu könül rahatlığı ilə söyləyə bilərik. Çingiz Aytmatov fenomeni haqqında çox yazılıb və daha çox yazılacaqdır. Özünü Avrasiyada əbədi olaraq ölümsüz tanıtması, heç də təsadüf olmayan bu DAHİNİN necə böyük olduğunu və onun varlığını fikir və düşüncə süzgəcindən keçirib anlamaq üçün zaman lazımdır.

Salamat qal, Çingiz ağa!

**Oljas Suleymenov**

**PHENOMENON**

**SUMMARY**

When Chingiz Aitmatov died in 2008 his friends wrote the articles about him. In the article "Phenomenon" by prominent writer, poet and literary critic Oljas Suleymanov was reflected the live portrait of his friend.

**Олжас Сулейменов**

**ФЕНОМЕН**

**РЕЗЮМЕ**

После кончины Чингиза Айтматова в 2008 году его друзья делились о нём своими воспоминаниями и публиковали их. Выдающийся казахский писатель, поэт и литературовед Олжас Сулейменов в связи с этим событием написал хоть и небольшую по объёму, но богатую по содержанию статью «Феномен», в которой представил живое изображение портрета своего друга, попутчика по общей жизненной судьбы.